Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi**

# Diaspor şanlı Zəfərin sədasını bütün dünyaya yaydı....

**Vətən müharibəsində qazanılan şanlı Qələbənin beşinci ildönümü, Azərbaycanla yanaşı, ölkə sərhədlərindən çox kənarda da xüsusi qeyd edildi. Bu, həm də Azərbaycan diasporunun, lobbisinin uğurlu fəaliyyəti kimi yeni tariximizə yazıldı. Ölkəmizin xaricdəki soydaşlarının təşkilatlanması, milli maraqların müdafiəsi və Azərbaycan həqiqətlərinin beynəlxalq aləmdə təbliği baxımından bu tədbirlər mühüm rol oynadı.**

### Müxtəlif ölkələrdə uğurla reallaşan fəaliyyət

Həmin tədbirlərdən biri Londonda təşkil olunan "Zəfər Salnaməsi" oldu. Tədbir Britaniya Azərbaycanlıları Assosiasiyasının təşkilatçılığı və Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə keçirilib. Diaspor fəalı və "Bülbül Azərbaycan dili" kitabının müəllifi Emiliya Cəbrayılova bu tədbirin yalnız tarixi bir anı xatırlamaq deyil, həmçinin xalqımızın qürur, qəhrəmanlıq və birliyini təntənə ilə qeyd etmək məqsədi daşıdığını bildirib. Tədbirdə Britaniya Azərbaycanlıları Assosiasiyasının rəhbəri Hafiz Baxşəliyev, Azərbaycanın Böyük Britaniyadakı səfiri Elin Süleymanov, Türkiyənin bu ölkədəki səfiri Koray Ertaş, ADPU-nun elm və innovasiyalar üzrə prorektoru Asəf Zamanov, Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşı Ləman Əliyeva çıxış edərək, xalqımızın əzmkarlığı, həmrəyliyi və Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin müdrik rəhbərliyi nəticəsində Vətən müharibəsində tarixi Qələbənin qazanıldığı vurğulanıb. Almaniyada fəaliyyət göstərən Avropa Azərbaycan Mərkəzinin və Azərbaycan-Ukrayna Beynəlxalq Mədəniyyət Körpüsünün təşkilatçılığı, Almaniya Azərbaycanlıları Alyansının dəstəyi ilə Gelzenkirxen şəhərində 8 Noyabr - Zəfər Günü və 9 Noyabr - Dövlət Bayrağı Gününə həsr olunmuş bayram tədbiri keçirilib. Avropa Azərbaycan Mərkəzinin sədri və Almaniya Azərbaycanlıları Alyansının idarə heyətinin üzvü Zaur Əliyev çıxış edərək, Zəfər Gününün tarixi ədalətin və beynəlxalq hüququn bərpası, milli birliyin və gələcəyə inamın rəmzi olduğunu vurğulayıb. Bayrağın xalqın milli kimliyinin rəmzi və qürur mənbəyi olduğunu qeyd edən Z.Əliyev Vətən müharibəsində tarixi Qələbə sayəsində bu gün üçrəngli şanlı Bayrağımızın Azərbaycanın hər guşəsində, o cümlədən Şuşada, Laçında, Xocalıda, Xankəndidə qürurla dalğalandığını diqqətə çatdırıb. O, diaspor gənclərinin bu istiqamətdə tarixi həqiqətlərə və real faktlara söykənən maarifləndirici fəaliyyətinin önəmini qeyd edərək, bu sahədə görülən işlərə fəal dəstəyin davam etdiriləcəyini bildirib.

Azərbaycan-Ukrayna Beynəlxalq Mədəniyyət Körpüsünün sədri Günay Hüseynova icmalar arasında mədəni əməkdaşlığın və həmrəyliyin önəmini qeyd edib. Diaspor fəalı Samirə Kərimova isə informasiya mühitində faktların diqqətə çatdırılmasının və təbliğinin əhəmiyyətini xüsusi vurğulayıb. ABŞ-ın Kolorado ştatında yaşayan azərbaycanlılar 8 Noyabr - Zəfər Günü münasibətilə "Rocky Mountain" dağlarına yürüş ediblər. Yürüşün əsas məqsədi Azərbaycanın 2020-ci ildə qazandığı tarixi Qələbəni xatırlamaq, Vətən müharibəsində şəhid olan qəhrəmanların xatirəsini anmaq və ABŞ-da yaşayan soydaşlarımız arasında milli həmrəylik ruhunu möhkəmləndirmək olub.

Azərbaycan icmasının gəncləri üzvlərinin də qatıldığı yürüşdə iştirakçılar Azərbaycan Dövlət Bayrağını qürurla dalğalandırıb, Zəfər Gününün xalqımız üçün tarixi və mənəvi əhəmiyyətindən danışıb, "Qarabağ Azərbaycandır!" şüarını səsləndiriblər. Bu təşəbbüs həm Koloradoda, həm də ABŞ-ın digər ştatlarında fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları arasında əlaqələrin möhkəmlənməsinə, eləcə də gənc nəsildə milli kimliyin qorunmasına xidmət edib. Yürüşə soydaşlarımızla yanaşı, yerli ictimaiyyətin5 nümayəndələri də qoşulub. Moldova Azərbaycanlıları Konqresinin təşkilatçılığı ilə Azərbaycanın Moldovadakı səfirliyində 8 Noyabr - Zəfər Gününə həsr olunan təntənəli tədbir keçirilib. Azərbaycanın Moldovadakı səfiri Ülvi Baxşəliyev soydaşlarımızı Zəfər Günü münasibətilə təbrik edib, bu tarixin milli birlik və ədalətin bərpası baxımından xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. 8 Noyabr - Zəfər Günü münasibətilə Azərbaycanın Çex Respublikasındakı səfirliyi tərəfindən Praqa şəhərində təntənəli mərasim keçirilib. Mərasimdə Çexiyanın ictimai-siyasi, elmi və işgüzar dairələrinin nümayəndələri, Praqada akkreditə olunmuş diplomatik korpusun rəhbərləri və əməkdaşları, media nümayəndələri və diaspor təşkilatlarının təmsilçiləri olmaqla, ümumilikdə 100-dək qonaq iştirak edib. Keniyanın paytaxtı Nayrobi şəhərində 8 Noyabr - Zəfər Gününün beşinci ildönümü münasibətilə



tədbir keçirilib. Tədbirdə şanlı Zəfər Gününə, həmçinin ölkəmizin inkişafına həsr edilmiş videoçarxlar nümayiş olunub və Azərbaycan musiqisindən nümunələr səsləndirilib. Azərbaycanın Sankt-Peterburq şəhərindəki baş konsulluğunda 8 Noyabr - Zəfər Gününün beşinci ildönümünə həsr olunmuş tədbir keçirilib. Səfir Rəhman Mustafayev və baş konsul vəzifəsini icra edən Anar Yusifzadə çıxışlarında 8 Noyabr - Zəfər Gününün Azərbaycan dövlətçiliyi tarixində xüsusi əhəmiyyət daşıdığını, bu Zəfərin Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, xalqın birliyi, Ordunun qəhrəmanlığı və ölkənin iqtisadi qüdrəti sayəsində qazanıldığını vurğulayıblar. Bu və digər tədbirlər Azərbaycan diasporunun dünyada artan nüfuzunun, uğurlu fəaliyyətinin mühüm göstəricisidir.

### Məlumat texnologiyalarından və sosial mediadan səmərəli istifadə

Proseslər göstərir ki, Azərbaycan diasporu son illərdə öz fəaliyyətinin məzmun və miqyasını xeyli genişləndirib. Qarabağ həqiqətlərinin beynəlxalq səviyyədə tanıdılması, 44 günlük Vətən müharibəsi zamanı və ondan sonra aparılan təbliğat kampaniyaları bunun bariz nümunəsidir. Dünyanın müxtəlif ölkələrində - ABŞ, Fransa, Almaniya, Türkiyə, Rusiya və digər dövlətlərdə yaşayan azərbaycanlı icmalar erməni təxribatlarına qarşı informasiya mübarizəsində fəal iştirak edir, Azərbaycanın haqlı mövqeyini beynəlxalq media və ictimaiyyətə çatdırır. .

Bununla yanaşı, diaspor fəaliyyəti artıq yalnız siyasi-təbliğat yönümlü deyil, həm də mədəni, iqtisadi və humanitar istiqamətlərdə genişlənməkdədir. Xaricdə fəaliyyət göstərən Azərbaycan evləri, mədəniyyət mərkəzləri, bazar iqtisadiyyatı üzrə biznes şəbəkələri və təhsil layihələri ölkəmizin beynəlxalq imicinə töhfə verir. Parisdə, Berlində, Londonda, Nyu-Yorkda və digər şəhərlərdə keçirilən "Azərbaycan Mədəniyyəti Günləri", "Xarıbülbül Festivalı" və "Azərbaycan Kinosu Həftəsi" kimi tədbirlər xarici ictimaiyyətin diqqətini ölkəmizə yönəldir. Diaspor quruculuğunun mühüm istiqamətlərindən biri də məlumat texnologiyalarından və sosial mediadan səmərəli istifadədir. Hazırda Azərbaycan diaspor təşkilatları "Facebook", "X", "Instagram", "YouTube" kimi platformalarda aktivdir. Onlar yalnız məlumat paylaşmaqla kifayətlənmir, həm də ictimai rəyin formalaşmasında, təhrif olunmuş məlumatlara qarşı mübarizədə vacib rol oynayırlar.

Qarabağın azad edilməsindən sonra diaspor fəaliyyətinin yeni prioritet istiqamətləri müəyyənləşdirilib. Artıq əsas məqsəd təkcə Azərbaycanın mövqeyini müdafiə etmək deyil, həm də postmüharibə dövrünün reallıqlarını və regionda sülh təşəbbüslərini dünyaya çatdırmaqdır. Azərbaycan diasporu bu mərhələdə "qalib xalq" obrazını formalaşdırmaq, ölkənin yenidənqurma və barış siyasətini beynəlxalq aləmdə təbliğ etmək kimi mühüm missiya daşıyır. Gələcək perspektivlər baxımından Azərbaycan diasporunun fəaliyyətinin daha da gücləndirilməsi, xüsusilə iqtisadi və elmi əməkdaşlıq yönümlü layihələrin artırılması prioritet sayılır. Xaricdəki azərbaycanlı iş adamlarının birgə investisiya platformalarının yaradılması, diasporun yerli biznes mühitinə cəlbi və "diaspor diplomatiyası"nın gücləndirilməsi qarşıdakı illərin əsas hədəflərindəndir.

***Tahir TAĞIYEV***

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.***